# 20 Yanvar faciəsinin iyirmi altıncı ildönümünün qeyd edilməsi barədə Azərbaycan Respublikası təhsil nazirinin əmri

20 Yanvar faciəsinin iyirmi altıncı ildönümünün təhsil müəssisələrində qeyd edilməsi məqsədi ilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. 20 Yanvar faciəsinin iyirmi altıncı ildönümünün keçirilməsi ilə əlaqədar Təhsil Nazirliyinin tədbirlər planı təsdiq edilsin (əlavə olunur).

2. Tədbirlər planına müvafiq olaraq, ali, orta ixtisas, ilk peşə, ümumi və məktəbdənkənar təhsil müəssisələrində 06 - 20 yanvar 2016-cı il tarixlərində Azərbaycanın azadlığı uğrunda mübarizədə həlak olmuş şəhidlərin xatirəsinə həsr olunmuş geniş tədbirlər həyata keçirilsin.

3. İnformasiya şöbəsi (E.Əliyev) əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

4. Əmrin icrasına nəzarət nazir müavini F.Qurbanova həvalə olunsun.

Əsas: Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Rəhbərinin 15 dekabr 2015-ci il tarixli, 96 nömrəli Sərəncamı.

***Mikayıl CABBAROV,***

***Azərbaycan Respublikasının təhsil naziri***

***8 yanvar 2016-cı il***

***№08***

---

**Əlavə:**

**20 Yanvar faciəsinin iyirmi altıncı ildönümünün qeyd edilməsi ilə əlaqədar Təhsil Nazirliyinin Tədbirlər Planı**